1_Layout 1 14.10.2025 10:24 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 19 (707)

15 oktyabr 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# GÜCÜMÜZ BİRLİYİMİZDƏDİR

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Gücümüz birliyimizdədir" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

### İlham Əliyev Türk Dövlətləri Təşkilatının yeni hədəfləri üçün qarşıdakı dövrün yol xəritəsini müəyyənləşdirdi

"Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir. Ölkəmiz təşkilatın işinə dəstək məqsədilə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür. Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir".

### Görülən işlər, qarşıdakı strateji hədəflər

Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev təşkilatın necə yarandığına, qısa zamanda necə formalaşdığına və getdikcə necə bir güc mərkəzinə çevrildiyinə qısa nəzər yetirdi. Azərbaycan Prezidenti həmçinin hər zaman olduğu kimi görülən işləri qiymətləndirdi və qarşıdakı hədəfləri göstərdi.

Prezidentin də söylədiyi kimi, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və bu il Budapeştdə baş tutmuş



görüş mühüm qərarlarla yadda qalıb.

İlham Əliyev qəbul edilən qərarları, həyata keçirilən layihələri yüksək qiymətləndirdi və bildirdi ki, bütün bunlar təşkilatın daha da güclənməsinə xidmət göstərən proseslərdir.

Ümumiyyətlə, TDT-nin Qəbələ zirvəsində Prezident İlham Əliyevin çıxışını həm də təşkilatın qarşıdakı dövr üçün yol xəritəsi də adlandırmaq olar.

Öncə onu vurğulamalıyıq ki, TDT-nin 12-ci Zirvə görüşü Azərbaycan və türk dünyası üçün əhəmiyyətli bir tarixi an oldu. Bu Zirvə görüşündə Prezident İlham Əliyev yalnız regionda sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətindəki mülahizələrini açıqlamaqla kifayətlənmədi, həm də Türk Dövlətləri Təşkilatının gələcək inkişafına dair strateji hədəflərini vurğuladı.

İlham Əliyevin çıxışında önə çıxan bir neçə mühüm məqam vardır. Bu səbəbdən də Türk Dövlətləri Təşkilatının güclənməsi və təşkilata üzv olan ölkələr arasında daha sıx əməkdaşlığın qurulması istiqamətində bir sıra vacib mesajlar verdi.

### Türk dünyasının strateji vizyonu və inteqrasiyası

Əvvəlcə, İlham Əliyev Türk Dövlətləri Təşkilatının gələcəyinə dair yeni strateji hədəflər ortaya qoydu. Prezident türk dünyasının daha sıx inteqrasiyasının vacibliyini qeyd edərək, üzv ölkələr arasında ticarət, nəqliyyat, enerji və turizm sahələrində əlaqələrin artırılmasının vacibliyini vurğuladı. Bu baxımdan Azərbaycan öz geosiyasi mövqeyindən istifadə edərək, Türk Dövlətləri Təşkilatının iqtisadi gücünü artırmaq və üzv ölkələr arasında ticari əlaqələri gücləndirmək niyyətində olduğunu bəyan etdi.

### Nəqliyyat və logistika infrastrukturunun inkişafı

Azərbaycanın "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafı ilə bağlı irəliləyişlərini diqqətə çatdıran İlham Əliyev bu layihələrin Türk Dövlətləri Təşkilatının üzv ölkələri üçün böyük əhəmiyyət daşıdığını qeyd etdi.

Dövlət başçısı Azərbaycanın, təkcə öz ölkəsinin deyil, eyni zamanda türk dünyasının nəqliyyat mərkəzinə çevrilməsi məqsədini daşıdığını bildirdi. Bu layihələrin həyata keçirilməsi ilə türk dövlətləri arasında daha asan və sürətli ticarət əlaqələri qurulacağı vurğulandı.

### Enerji təhlükəsizliyi və türk dövlətlərinin enerji bazarına təsiri

Prezident İlham Əliyev enerji sahəsində də Türk Dövlətləri Təşkilatının böyük potensiala sahib olduğunu qeyd edərək, Azərbaycanın enerji təhlükəsizliyi məsələsindəki rolunu önə çəkdi.

İlham Əliyev türk dövlətlərinin enerji ehtiyatlarının paylaşılmasının və bu sahədə birgə fəaliyyətin daha da dərinləşdirilməsinin vacibliyini bildirdi. Azərbaycanın Xəzər dənizindəki enerji resurslarının türk dünyasına qazandırılmasını və bu resursların dünyaya daşınması istiqamətindəki səylərinin davam edəcəyini vurğuladı.

### Təhlükəsizlik və hərbi əməkdaşlıq

Türk Dövlətləri Təşkilatının həm iqtisadi, həm də təhlükəsizlik baxımından güclü bir struktura çevrilməsi üçün hərbi sahədə əməkdaşlığın artırılmasının vacibliyinə diqqət çəkən İlham Əliyev bu baxımdan üzv ölkələr arasında hərbi təlimlərin, mütəxəssis mübadiləsinin və təhlükəsizlik məsələləri üzrə əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qeyd etdi.

Dövlətimizin başçısı dedi ki, təşkilatın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.

Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmillətli hərbi təlimlər keçirilib. "Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm" deyən Azərbaycan Prezidenti vurğuladı ki, bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir.

### Türk dünyasında təhsil və mədəniyyət əməkdaşlığı

Türk Dövlətləri Təşkilatının təhsil və mədəniyyət sahələrində də böyük potensiala sahib olduğunu qeyd edən İlham Əliyev türk dünyası ölkələri arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacib olduğunu bildirdi. Bu məqsədlə türk dilinin tədrisinin genişləndirilməsi, mədəni mübadilələrin artırılması və birgə layihələrin həyata keçirilməsi planlaşdırılmalıdır.

### İqlim dəyişikliyi və ekoloji problemlər

Prezident İlham Əliyev Azərbaycan hökumətinin ekoloji problemlərlə mübarizə sahəsində ciddi addımlar atdığını, türk dünyası ölkələrinin də birgə şəkildə bu məsələyə yanaşmasının vacib olduğunu qeyd etdi. Azərbaycanın ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində beynəlxalq əməkdaşlığa verdiyi önəmi vurğuladı və Türk Dövlətləri Təşkilatının bu sahədə birgə siyasət yürütməsini təklif etdi.

### Türk Dövlətləri Təşkilatının qlobal siyasətdəki rolu

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının qlobal siyasətdə daha aktiv rol alması üçün bütün üzv ölkələrin birgə fəaliyyət göstərməsinin vacibliyini qeyd etdi. Dövlət başçısı türk dünyasının dünya siyasətindəki təsirinin artırılması və bu təşkilatın beynəlxalq arenada daha möhkəm mövqe tutması məqsədilə əməkdaşlığın dərinləşdirilməsinin vacib olduğunu bildirdi.

Qəbələdə keçirilən 12-ci Zirvə görüşü, Türk Dövlətləri Təşkilatının gələcəyinə dair İlham Əliyevin bəyan etdiyi hədəflər türk dünyasının siyasi, iqtisadi və mədəni inteqrasiyasını sürətləndirə biləcək mühüm addımların atılması istiqamətində bir çağırışdır. Bu hədəflərin həyata keçirilməsi türk dövlətləri arasında daha güclü bir əməkdaşlıq qurulmasına və bu əməkdaşlığın qlobal səviyyədə daha təsirli olmasına imkan yaradacaq.





# Nazir Vilayət Eyvazov Sumqayıtda vətəndaşların müraciətlərini dinləyib və sıra baxışı keçirib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 30-da və oktyabrın 1-də Sumqayıt Şəhər Polis İdarəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Sumqayıt şəhərindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra şəhər polis idarəsinin inzibati binasında Sumqayıt şəhəri və digər rayonlardan gələn 367 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Sumqayıt şəhərində yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 23 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 295 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**






2_Layout 1 14.10.2025 10:58 Page 1



# III MDB OYUNLARI ZAMANI TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİ YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN EDİLİB

Sentyabr ayının 28-dən oktyabr ayının 8-dək Gəncə, Mingəçevir, Xankəndi, Şəki, Göygöl, Yevlax, Qəbələ şəhər və rayonlarında III MDB Oyunları keçirilib. Beynəlxalq əhəmiyyətli idman oyunları zamanı ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsi, ərazinin mühafizəsi və nəzarət-buraxılış tədbirlərinə Daxili İşlər Nazirliyinin polis əməkdaşları ilə birlikdə cəlb olunan Daxili Qoşunların şəxsi heyəti üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.






Qeyd olunmalıdır ki, ilk növbədə, müvafiq plan-hesab hazırlanaraq şəxsi heyətin xidmət sahələri üzrə bölgüsü aparılıb, polislə qoşunların birgə xidmətinin əlaqələndirilməsi, tədbirin təşkilatçıları, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı əlaqələrin qurulması məqsədilə Daxili Qoşunların Baş İdarəsində baş idarəetmə mərkəzinin, hərbi hissələrdə isə idarəetmə məntəqələrinin fəaliyyəti təşkil edilib. Oyunların təşkil olunacağı ərazi və obyektlərə baxış keçirilərək xidmətin aparılması baxımından təhlil olunub, aidiyyəti üzrə komandir heyəti təlimatlandırılıb. Xidmətə cəlb olunan hərbi qulluqçulara tədbirin əhəmiyyəti izah edilərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmaları tələb olunub.




Oyunlar ərəfəsində hərbi hissələrdə keçirilən sıra baxışında ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasına cəlb ediləcək hərbi qulluqçuların xidmətə hazırlıqları, təminat-təchizat məsələlərinin həlli, eləcə də avtomobillərin vəziyyəti yoxlanılıb. İstehkamçılar tərəfindən oyunlar keçirilən ərazilərdə, avtomobil dayanacaqlarında müvafiq yoxlamalar aparılıb.



Bununla yanaşı, həvalə edilən obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrində buraxılış rejiminin təmin olunması üzrə xüsusi məşğələlər keçirilib. Oyunların keçirildiyi ərazilərdə perimetr boyunca xidmət edən Daxili Qoşunların hərbi qulluqçularının xidməti zamanı qarşıya qoyulan bütün tapşırıqlar uğurla yerinə yetirilib, hər hansı bir nöqsana yol verilməyib.

Həmçinin xidmətə cəlb olunan hərbi qulluqçularla əvvəlcədən aparılmış təlimatlandırma, o cümlədən onların mənəvi-psixoloji və fərdi keyfiyyətlərinə diqqət yetirilməsi nəticəsində vətəndaşlarla, xüsusən əcnəbi qonaqlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunub.

Oyunlar keçirilən müddətdə xidmətin aparılması üçün bütün zəruri tədbirlər görülüb, şəxsi heyətin daşınması, qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, onların asudə vaxtlarının səmərəli təşkili xüsusi diqqət mərkəzində saxlanılıb.

Göründüyü kimi, mötəbər tədbir zamanı ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti bu dəfə də qarşıya qoyulan bütün tapşırıqları peşəkarlıqla yerinə yetirib.

**Mətbuat xidməti**

# İSTEHKAMÇI YARIMQRUPU UĞURLU XİDMƏTİ İLƏ FƏRQLƏNİR

17072 saylı hərbi hissənin hərbi qulluqçuları qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində ayıqsayıqlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.



Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən istehkamçı yarımqrupunun komandiri-baş istehkamçı gizir Elçin Quliyev




söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə şahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Yarımqrup komandiri qarşıya qoyulan tapşırıqların keyfiyyətlə icra edilməsi məqsədilə hərbi hissə komandirinin təsdiq etdiyi müvafiq plana əsasən, şəxsi heyətlə mütəmadi olaraq məşğələlərin keçirildiyini bildirdi.

Məlumat üçün qeyd edək ki, gizir E.Quliyev 2013-cü ilin noyabr ayından Daxili Qoşunların sıralarındadır. 17072 saylı hərbi hissədə müxtəlif vəzifələrdə xidmət edib, verilən tapşırıqları keyfiyyətlə yerinə yetirib. 2015-ci ilin aprel ayından isə istehkamçı yarımqrupunun komandiridir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Xüsusi təyinatlı dəstənin komandiri mayor Nadir Şərifov da hərbi qulluqçumuzun uğurlarının peşəsinin sirlərinə dərindən bələd olmasından və öz işinə tam məsuliyyətlə yanaşmasından irəli gəldiyini söylədi.

Yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuşlar Rahib İsmayılov, Qəhrəman Şahquliyev və çavuş Elçin Əhmədağalı vəzifələrin icrasında hər zaman fərqlənirlər. Xidmətin uğurla davam etdirən şəxsi heyət bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazırdır.

**kapitan Xədicə Hacızadə**

# MÜƏLLİMLƏR GÜNÜNƏ HƏSR OLUNAN TƏDBİR KEÇİRİLİB

Oktyabrın 3-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib. Bu tədbir ölkəmizdə müəllim əməyinə verilən yüksək qiymətin və hərbi təhsil sistemində fəaliyyət göstərən pedaqoqlara qayğının bariz ifadəsi olub.



Əvvəlcə institut rəhbərliyi və professor-müəllim heyəti "Şəhidlər" abidə kompleksini ziyarət edərək, qəhrəman Vətən övladlarının xatirələrini ehtiramla yad edib. Daha sonra tədbirin rəsmi hissəsi başlanıb. Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirələri bir dəqiqəlik sükutla anılıb. Dövlət Himni səsləndirilib.



Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun təbriki komandan müavini-şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov tərəfindən iştirakçılara çatdırılıb. Daha sonra əlamətdar gün münasibətilə hazırlanmış videoçarx nümayiş etdirilib. Hərbi İnstitutun rektorunun əmri ilə bir qrup müəllim fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.




Çıxış edən polkovnik Almas Ağamalıyev, mülki müəllim Gülnar İsmayılova və kursantlar müəllim peşəsinin müqəddəsliyindən, zabitlərin yetişdirilməsində müəllimlərin rolundan danışıblar. Kursantlar, həmçinin müəllimlərə həsr olunmuş şeirlər səsləndiriblər, onların çıxışları tədbirə emosional ovqat qatıb. Kursantların təqdim etdikləri "Müəllim Günündə dərs" adlı səhnəcik maraqla qarşılanıb.

Sonda xatirə şəkli çəkilib.

**Hərbi-elmi şöbənin rəisi**
**polkovnik Vüqar Şirinov**

# XÜSUSİ TƏYİNATLILAR QARŞIYA QOYULAN TAPŞIRIQLARIN İCRASINA HƏR ZAMAN HAZIRDIRLAR

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istərsə də ictimai qaydanın qorunması və təhlükəsizliyin təmin olunması zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və "dəmir iradə" tələb edir. Bu mənada 12565 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.





Hərbi hissənin komandiri polkovnik Təbriz Kərimov xüsusi təyinatlıların hazırlıqlarına diqqət yetirildiyini vurğulayaraq, dəstənin şəxsi heyətinin qarşıya qoyulan tapşırıqların icrasına hər an hazır olduğunu bildirdi. Qeyd etdi ki, şəxsi heyətin gündəlik fəaliyyəti daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir: "Əsas diqqət atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Aparılan nümunəvi xidmətin nəticəsidir ki, bölmələr arasında xüsusi təyinatlı dəstə hər zaman fərqlənir".

Dəstə komandiri mayor Turqay Musazadə vurğuladı ki, şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın



texnikasını bacarıqla və peşəkarcasına idarə edə bilməsi üçün müxtəlif relyefdə və hava şəraitində məşğələlər keçirilir. Hədəfimiz daim irəlidə olmaq, hərbi hissənin bölmələri arasında qazandığımız birinciliyi qoruyub saxlamaqdır".

Mayor T.Musazadə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsində dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Məmməd Yusifovun əməyini xüsusilə qeyd etdi.

Dəstə komandiri intizamlı və fəal hərbi qulluqçulardan kapitan Elay Əliyev, leytenant İbrahim Nağıyev, gizirlər Raci Novruzov, Maqsud Quliyev, Elgün Əsgərov, Elməddin Mehdiyev, Babək Muxtarlı, baş çavuş Təbriz Məmmədov, çavuşlar Sahil Piriyev, Orxan Əliyev, Şəhriyar Əliyev və Rövşən Əliyevin adlarını çəkdi, onların yoldaşlarına nümunə olduqlarını bildirdi.

**mayor Anar Əhmədov**

3_Layout 1 14.10.2025 11:01 Page 1



# HƏRBİ HİSSƏLƏRDƏ ANIM TƏDBİRLƏRİ KEÇİRİLİB







2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Silahlı Qüvvələrimiz işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə düşmənə qarşı əks-hücum əməliyyatlarına başlayıb. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda 44 gün davam edən şərəfli mübarizədə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları yüksək fədakarlıq nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endiriblər. Uzun illər düşmən tapdağı altında olan torpaqlarımız şəhidlərimizin və qazilərimizin canları və qanları bahasına işğaldan azad edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz böyük hərbi zəfər qazanaraq, Azərbaycanı qalib dövlət zirvəsinə ucaldıb. Şəhidlərimiz bütün dünyaya Azərbaycan xalqının yenilməz döyüş ruhuna malik olduğunu göstəriblər.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizə dərin ehtiramın təzahürü kimi respublikamızda 27 sentyabr - Anım Günü təsis olunub. Bununla əlaqədar olaraq, ölkəmizin bütün bölgələrində şəhidlər anılır, onların məzarları ziyarət olunur, hər birinin ruhuna dualar oxunur.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının imzaladığı müvafiq plana əsasən, Daxili Qoşunların hərbi hissələrində də 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri zamanı şəhid olmuş hərbi qulluqçuların xatirələri anılıb. Şəhidlər xiyabanları və müxtəlif qəbiristanlıqlardakı şəhidlərin məzarları, həmçinin şəhid hərbi qulluqçuların ailə üzvləri ziyarət olunub. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında aparılmış döyüş əməliyyatları, hərbi qulluqçularımızın göstərdikləri şücaət və qəhrəmanlıq nümunələri mövzusunda şəxsi heyətlə məşğələlər təşkil olunub, sənədli filmlər, video-çarxlar nümayiş etdirilib, həmçinin Vətən uğrunda canlarını fəda etmiş şəhidlərin xatirələrinə ehtiram əlaməti olaraq ağacəkmə kampaniyası keçirilib.

Məlumat üçün qeyd edək ki, Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlər zamanı Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər isə yaralanıb və xəsarət alıb.

Vətən müharibəsində olduğu kimi, antiterror tədbirlərində də Daxili Qoşunların bölmələri yüksək peşəkarlığa və döyüş hazırlığına malik olduqlarını nümayiş etdiriblər. Bu əməliyyat zamanı qarşılarına qoyulan döyüş tapşırıqlarını mərdliklə yerinə yetirən Daxili Qoşunların 12 nəfər hərbi qulluqçusu və 8 nəfər polis əməkdaşı şəhidlik zirvəsinə ucalıb. Antiterror tədbirləri nəticəsində şəxsi heyət sırasından 24 nəfər hərbi qulluqçu yaralanıb və xəsarət alıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Vətən müharibəsi zamanı göstərdikləri şücaət və mərdlik nümunələrinə görə Daxili Qoşunların 4 nəfər hərbi qulluqçusuna (onlardan 1 nəfərinə ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, həmçinin yüzlərlə hərbi qulluqçu müxtəlif orden və medallara layiq görülüb.

**Mətbuat xidməti**







*Şəhidlərimiz*

# VƏTƏNİN QEYRƏTLİ VƏ CƏSUR ƏSGƏRİ OLDU...

1992-ci il martın 12-də Ağdam rayonu ərazisində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti ilk dəfə erməni işğalçılarına qarşı döyüşə başlayıb. 1994-cü ilin may ayında uzunmüddətli atəşkəs elan olunanadək hərbi qulluqçularımız ön cəbhənin müxtəlif istiqamətlərində düşmənə qarşı mərdliklə vuruşublar. Müharibə zamanı şəxsi heyətin sıralarından 682 nəfər şəhidlik məqamına yüksəlib. Onların siyahısında əsgər İmanov Əbülfəz Tərlan oğlunun da adı var.

O, 1973-cü il avqustun 8-də İmişli rayonunun Muradxanlı kəndində doğulub. Tərlan İmanov və Gülgəz İmanovanın 9 oğul övladından biri olan Əbülfəz mənəvi dəyərlərimizə sayqı ilə yanaşılan, halal zəhməti ilə dolanan, qayğıkeş, mehriban ailədə böyüyüb. Valideynləri onu el-oba qədrini bilən, qeyrətli övlad olaraq yetişdiriblər.

Muradxanlı kənd tam orta məktəbini bitirib. Müəllimlərinin verdikləri tərbiyə, öyrətdikləri biliklər vətənpərvərlik əqidəsinin formalaşmasında vacib rol oynayıb. Orta məktəbdə texniki fənlərə daha çox maraq göstərib. Keçirilən ictimai tədbirlərdə fəal iştirak edib. Yeniyetmə vaxtından onun musiqi istedadı özünü büruzə verib, avazlı səsi ilə məqamı düşəndə ürəyinə yatan xalq mahnılarını oxuyub.

Hərbi xidmətə yollananadək kənddə mövcud olmuş Səməd Vurğun adına kolxozda işləyib, ailəyə maddi cəhətdən dayaq olmağa çalışıb. Bununla yanaşı, ev təsərrüfatında valideynlərinə köməyini əsirgəməyib.

1992-ci ilin mart ayında Əbülfəz DİN-in Daxili Qoşunlarının sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılıb. 5456 saylı (indiki 99713 saylı) hərbi hissədə hərbi and içib. İntizamlı, təlimdə çalışqan, verilən tapşırıqların öhdəsindən bacarıqla gələn əsgər kimi komandirlərinin rəğbətini qazanıb.

Qeyd edilən dövrdə Qarabağ, Şərqi Zəngəzur və digər bölgələrimizdə şiddətli döyüşlər səngiməyib. Ön cəbhədə vəziyyət ağırlaşdıqca Daxili Qoşunların hərbi hissələrindən şəxsi heyət mərhələli şəkildə müxtəlif istiqamətlərə döyüş tapşırıqlarının icrası üçün göndərilib.

5456 (99713) saylı hərbi hissə müharibə sınağından keçən ilk hərbi hissələrdən biri olub. 1992-ci ilin may ayının 8-də hərbi hissədən Qubadlı rayonuna gedən şəxsi heyətin tərkibində Əbülfəz də var idi. Onlar Bakıdan Qubadlıya helikopterlə uçublar. Mayın 8-də qədim şəhərimiz, strateji əhəmiyyətli yüksəklikdə yerləşən Şuşa düşmənin əlinə keçib. Bununla da yağının əsas zərbəsi Laçın rayonuna yönəldilib. Mənfur ermənilər bu rayonu da işğal etməklə Ermənistana quru yolla dəhliz açmaq məqsədini qarşıya qoyublar.



Qubadlıya çatan hərbi qulluqçularımız oradan Şuşa rayonunun Turşsu, sonra isə Böyük Qaladərəsi yaşayış məntəqələri istiqamətinə aparılıblar. Böyük Qaladərəsi yaxınlığında müdafiə postları qurulub. Beləliklə, Əbülfəz və silahdaşlarının çətin sınaqlarla dolu, barıt qoxulu döyüş yolu başlayıb, müharibə gerçəkliyi ilə ilk dəfə bu bölgədə üzləşiblər. Həmin vaxt Laçın rayonu ərazisində vəziyyət getdikcə daha da ağırlaşıb. Həm Qarabağdakı erməni separatçılarının silahlı dəstələri, həm də Ermənistan ordusunun bölmələri iki tərəfdən rayona davamlı hücumlar ediblər. 1992-ci il mayın 18-də Laçın şəhəri işğal olunub. Daxili Qoşunların hərbi qulluqçularının yerləşdikləri mövqelərin mühasirəyə düşməsi təhlükəsi yaranıb. Onlar gecə ikən meşə ilə ərazini tərk etmək məcburiyyətində qalıblar. Verilən döyüş tapşırığına uyğun olaraq öncə Qubadlı rayonunun Muradxanlı kəndində yerləşiblər, ardınca isə Novlu kəndində mövqeləniblər. Gorus-Qafan avtomobil yolu yaxın məsafədə olub. Ona görə də bu istiqamətdə düşmənin hücumlarının qarşısını almaq məqsədilə müdafiənin möhkəmləndirilməsi üçün tədbirlər görülüb. 1992-ci ilin sonunadək orada qaldıqları müddətdə müdafiə döyüşləri olub, erməni kəşfiyyat qrupları əraziyə sızmağa cəhdlər ediblər, mövqelərimiz dəfələrlə müxtəlif çaplı silahlardan atəşə tutulub. Əbülfəz avtomat silahı ilə yağını susdurmaq üçün qətiyyət göstərib, qorxmazlığı və sayıqlığı ilə fərqlənib. Aylarla odlu səngərlərdə qaldığına, müharibə şəraitinin ağırlığına baxmayaraq, heç vaxt ruhdan düşməyib.



1992-ci ilin dekabr ayında Daxili Qoşunların komandanlığının qərarına əsasən, 5456 (99713) saylı hərbi hissənin Qubadlı rayonundakı şəxsi heyəti dislokasiya yerini dəyişərək Füzuli rayonuna köçürülüb. Qərargah Şəkərcik kəndində yerləşdirilib. Hərbi qulluqçularımız Dilağarda, Divanalılar və Qacar kəndlərinin müdafiəsində dayanıblar. Onlar müvəqqəti təşkil edilmiş 15014 saylı hərbi hissənin tərkibinə daxil olublar. Qeyd edilən mövqelərdə müdafiə və Xocavənd rayonu istiqamətində hücum döyüşləri zamanı hərbi qulluqçularımız mətinliklə vuruşublar. Əbülfəz Dilağarda kəndi ətrafındakı mövqelərdə müdafiə zamanı və yağının üzərinə hücuma keçərkən cəsur döyüşçü olduğunu bir daha isbatlayıb.

1993-cü ilin fevral ayından etibarən Ağdərə-Ağdam cəbhəsində vəziyyət kəskin şəkildə pisləşib, bu bölgədəki kəndlərə və yüksəkliklərə işğalçıların hücumları artıb. Belə durumda Füzuli rayonundakı hərbçilərimizdən ibarət taborun Ağdam rayonuna göndərilməsi zərurəti ortaya çıxıb. Martın 16-da taborun şəxsi heyəti Ağdam şəhərindəki 6 saylı orta məktəbdə təşkil olunmuş hərbi hissədə yerləşib. Hərbi hissədə bir neçə gün ərzində döyüş təlimi keçirilib, sursat ehtiyatı yenilənib, ayrı-ayrı silahlardakı nasazlıqlar aradan qaldırılıb.

1993-cü il martın 23-də taborun şəxsi heyəti Ağdərə rayonundakı "Qlobus" adlandırılan yüksəklik uğrunda hücuma atılıb. Həmin döyüşdə igidliklə vuruşan Əbülfəz başından erməni snayperinin gülləsinə tuş gəlib və yerindəcə şəhid olub. Martın 24-də döyüşçünün nəşi İmişli şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Daxili Qoşunların Arxivindən verilən 15 iyul 2025-ci il tarixli müvafiq arayışda əsgər Ə.İmanovun yuxarıda qeyd edilən tarixdə və ərazidə şəhid olması faktı öz əksini tapıb.

Silahlı Qüvvələr və müharibə veteranı, Daxili Qoşunların Baş İdarəsinin katibliyinin hüquq xidmətinin rəisi polkovnik Mahir Əsgərov əsgər Ə.İmanovla birlikdə həm xidmət, həm də döyüş yolu keçib. Onunla həmsöhbət oldum, şəhid haqqında xatirələrini dinlədim. Mərhum silahdaşı ilə 1992-ci ilin aprel ayında tanış olduğunu söylədi: "Şəhid Ə.İmanov haqqında danışmaq mənim üçün çətindir, onu heç vaxt unutmamışam. Eyni hərbi hissədə xidmət etmişik, ön cəbhəyə də birlikdə yollanmışıq. Etibarlı yoldaşlığımız olub. Mənə döyüş bölgəsində "çavuş" hərbi rütbəsi verilmişdi. O, kiçik və böyük komandirlərin həmişə hörmətini saxlayırdı, bütün silahdaşları ilə münasibətində səmimi və dürüst idi. Vətənə sədaqətli, fədakar, iradəli, təmkinli və cəsur əsgər kimi yaddaşımda qalıb. Özü haqqında "mən tərəkəməyəm" deyirdi, el-obasından həvəslə söhbət açırdı. Qeyri-adi səsi vardı, muğamları ifa edirdi, Könül Xasıyevanın və Şəmistan Əlizamanlının mahnılarını sevərək oxuyurdu. Musiqi alətlərinin səsini yamsılamağı da bacarırdı. Hərbi xidmətdən sonra musiqi təhsili almağı nəzərdə tuturdu. Əbülfəzi səsinə görə Bakıda yaradılmış, Daxili Qoşunların nəzdində musiqiçilərdən ibarət özfəaliyyət kollektivinə cəlb etmişdilər, lakin o, oradan yenidən ön cəbhəyə qayıtmışdı. Döyüşən silahdaşlarından ayrılmaq istəməmişdi. Yoldaşlarına deyirdi ki, inşallah, toyunuzda özüm oxuyacağam. Sevdiyi qız vardı, yalnız müharibədən sonra ona bu hissi ifadə etməyə söz haqqının olacağını düşünürdü.

Torpaqlarımızın işğaldan azad olunduğu günü görməyi, Şuşaya qədəm basmağı, gələcəkdə bu şəhərdə ev almağı arzulayırdı".

Polkovnik M.Əsgərov "Qlobus" adlandırılan yüksəklik uğrunda döyüşdə yaralanıb. O da Əbülfəzin məhz həmin ərazidə şəhid olduğunu təsdiqləyir.

44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü tam bərpa olunub, işğalçı erməni ordusu darmadağın edilib. Beləliklə, bütün şəhidlərimizin qisası alınıb. Bu gün biz qalib dövlət və xalq olaraq qürurla yaşayırıq.

Şəhidin babaları İkinci Dünya müharibəsinin iştirakçıları olublar, əmisi oğlu Niyaməddin İmanov və bibisi oğlu Hafiz Abbasov isə Vətən uğrunda canlarını qurban veriblər.

Əbülfəzin anası 1999-cu ildə, atası isə 2024-cü ildə dünyasını dəyişib. Qardaşları onu unutmur, xatirəsini əziz tutur və adını yaşadırlar. Ürəyi Vətən eşqi ilə döyünmüş döyüşçü ləyaqətli və gənc nəslə örnək olan ömür yaşayıb.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 14.10.2025 11:35 Page 1



# KURSANTLAR BEYNƏLXALQ KİTAB SƏRGİSİNDƏ İŞTİRAK EDİBLƏR

Daxili Qoşunların Hərbi İnstitutunun kursantları Bakı Ekspo Mərkəzində keçirilən XI Bakı Beynəlxalq Kitab Sərgisində iştirak ediblər.

Bir həftə davam edən sərgidə yerli və xarici nəşriyyatların təqdim etdiyi müxtəlif sahələrə aid kitablar - hərbi elmlər, dövlət idarəçiliyi, hüquq, tarix, politologiya, klassik və müasir ədəbiyyat nümunələri nümayiş olunub.



Sərgiyə qatılan kursantlar müxtəlif tematik bölmələri izləyərək, müasir elmi-nəzəri ədəbiyyatla yanaşı, klassik bədii irsin nümunələri ilə tanış olublar. Onların xüsusi maraq göstərdikləri sahələr sırasında milli təhlükəsizlik, hərbi strategiya, beynəlxalq münasibətlər və liderlik mövzularına dair nəşrlər diqqət çəkib. Bu yanaşma kursantların peşə hazırlıqlarının yalnız praktiki aspektlərlə məhdudlaşmadığını, həm də nəzəri biliklərin zənginləşdirilməsinə istiqamətləndiyini göstərir.

Qeyd olunmalıdır ki, Daxili Qoşunların Hərbi İnstitutu artıq ikinci ildir ki, beynəlxalq kitab sərgisində iştirak edir. Bu fakt institutun təlim-tədris prosesində mütaliə mədəniyyətinə, elmi mənbələrlə tanışlığa və intellektual inkişafın stimullaşdırılmasına xüsusi əhəmiyyət verdiyinin təzahürüdür.

Belə tədbirlər Hərbi İnstitut rəhbərliyi tərəfindən kursantların təhsil və tərbiyəsinin ayrılmaz hissəsi kimi qiymətləndirilir. Kitab sərgilərində iştirak kursantların dünyagörüşünü genişləndirməklə yanaşı, onların müasir elmi mühitə inteqrasiyasına və hərbi təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

**Hərbi-elmi şöbənin rəisi**
**polkovnik Vüqar Şirinov**

# QARABAĞLAR TÜRBƏ KOMPLEKSİNƏ EKSKURSİYA TƏŞKİL EDİLİB



Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, mədəni-estetik səviyyəsinin yüksəldilməsində, hərbi qulluqçulara vətənpərvərlik əqidəsinin aşılanmasında, onların maarifləndirilməsində tarixi məkanlara və mədəniyyət abidələrinə ekskursiyaların təşkilinin xüsusi əhəmiyyəti var. Həmçinin şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsi baxımından belə tədbirlər vacibdir.

Qədim tarixi ənənələrə, zəngin mədəni irsə malik bölgədə yerləşən 12565 saylı hərbi hissədə şəxsi heyətin mütəmadi olaraq mədəniyyət ocaqlarına gəzintisi təşkil edilir. Oktyabrın 8-də hərbi hissənin əməliyyat taborunun əməliyyat bölüyünün taqım komandiri leytenant Coşqun Alıyevin rəhbərliyi ilə bir qrup şəxsi heyət Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən, XII-XIV əsrlərə aid qədim Qarabağlar Türbə Kompleksində ekskursiyada olub. Kompleksin baş fond mühafizi-bələdçi Şəhriyar Qasımov tərəfindən hərbi qulluqçularımıza Naxçıvanın tarixi məkanları, həmçinin türbə kompleksinin tarixi, memarlıq xüsusiyyətləri, qorunub saxlanılan eksponatlar, mədəni irsin mühafizəsi üzrə görülən işlər barədə geniş məlumat verilib, onların sualları cavablandırılıb.



**12565 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

# AVTOMOBİLLƏRİN SAZ VƏZİYYƏTDƏ OLMASINA XÜSUSİ FİKİR VERİLİR

Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılmasında bütün xidmət sahələrinin öz rolu var. Bu baxımdan avtomobil xidməti də istisna deyil. Şəxsi heyətin, habelə xüsusi yüklərin təyin olunmuş ünvana vaxtlı-vaxtında daşınmasında xidmətin əməyi böyükdür.



16076 saylı hərbi hissənin avtomobil xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir. Hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini kapitan Vüsal Əliyev nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışarkən bildirdi ki, hər gün sürücü heyəti avtomobillərin saxlanıldığı parka gəlir. Parkın girişində xidmət rəisi və park növbətçisi tərəfindən şəxsi heyətin sayı yoxlanılır, təhlükəsizlik qaydaları ilə tanışlıqdan sonra verilmiş tapşırıqlara əsasən fəaliyyətə başlayırlar.

Avtomobil xətdə çıxmazdan öncə parkda yerləşən nəzarət-texniki məntəqəsində maşın rəhbərinin, sürücünün sənədlərinin mövcudluğu, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xətdə çıxılması üçün icazə verilir. Bundan sonra xidmət rəisi tərəfindən sürücülər təlimatlandırılırlar, hava və yol şəraiti barədə məlumat verilir, yol hərəkəti qaydalarına riayət edilməsi, habelə avtomobil hərəkətdə olarkən təhlükəsizlik kəmərlərindən istifadə edilməsi barədə müvafiq tapşırıqlar verilir. Xətdən qayıtdıqdan sonra parkın girişində təyin olunmuş yerdə avtomobil saxlanılır, maşın rəhbəri avtomobili nəzarət-texniki məntəqəsi rəisinə təqdim edir.

Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə yay və qış mövsümlərində texniki xidmətlər göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır.

Kapitan V.Əliyev vəzifə borclarının icrasına vicdanla yanaşan, hər zaman öz bilik və bacarıqlarını təkmilləşdirən nümunəvi hərbi qulluqçulardan baş çavuş Ramazan Quliyevin və əsgər Əli Abbasovun adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

*Həkim məsləhəti*

# YENİ ARAŞDIRMA: D VİTAMİNİ QOCALMANI LƏNGİDƏ BİLƏR

ABŞ-ın Auqusta Universitetində aparılan araşdırma göstərib ki, D vitamini əlavələri qocalmanı yavaşlada bilər. AZƏRTAC "sciencealert.com" saytına istinadla xəbər verir ki, alimlərin müəyyən etdiyinə görə, gündəlik 2000 IU D vitamini (50 µg) qəbul etmək xromosomların ucunda yerləşən telomerləri qoruyur. Telomerlər hüceyrələrin bölünməsi zamanı DNT-ni zədələnmədən saxlayır və onların qısalması qocalma prosesinin əsas göstəricilərindən biridir.




Beş il davam edən araşdırmada orta yaşı 65 olan 1031 nəfər izlənilib. Nəticələrə görə, D vitamini qəbul edənlərdə telomerlər daha yaxşı qorunub. Bu fərq qocalma ilə əlaqəli fəsadlar: ürək-damar problemləri, xərçəng və oynaq xəstəlikləri riskinin azalmasına işarə edə bilər.

Mütəxəssislər bildirirlər ki, D vitamini həm sümük sağlamlığı, həm də immun sistemi üçün vacibdir. O, bədəndəki iltihabı azalda və infeksiyalara qarşı qoruma təmin edə bilər.

Bununla belə, alimlər xəbərdarlıq edirlər ki, yüksək dozada vitamin qəbulu düzgün deyil. Optimal miqdar fərdin sağlamlıq vəziyyətindən, qidalanmasından və mövcud D vitamini səviyyəsindən asılıdır.

Həkimlər vurğulayırlar ki, sağlam qocalma üçün ən təsirli üsullar hələ də balanslı pəhriz, müntəzəm fiziki aktivlik, keyfiyyətli yuxu, siqaretdən uzaq durmaq və stresi azaltmaqdır. D vitamini bu prosesdə əlavə dəstək ola bilər.

**AZƏRTAC**

*NÜMUNƏVİ XİDMƏT*

# TƏCRÜBƏLİ VƏ BACARIQLI QAROVUL RƏİSİ

Gizir Fariz Cabbarov 99713 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularındandır. O, 1994-cü ilin sentyabr ayının 29-da Bakı şəhərində doğulub. Xətai rayonunda yerləşən 263 saylı tam orta məktəbdə təhsil alıb. 2011-ci ildə orta təhsilini tamamlayıb. Elə həmin il Ağdam Sosial-İqtisadi Kollecinə daxil olub. 2014-cü ilin oktyabr ayından 2016-cı ilin aprel ayınadək Naxçıvan Muxtar Respublikasında Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini başa vurduqdan sonra yarım qalan təhsilini davam etdirib və 2017-ci ildə kolleci uğurla bitirib.



2017-ci ilin noyabr ayında Daxili Qoşunların 12318 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayıb. Daha sonra 99713 saylı hərbi hissədə müxtəlif vəzifələrdə verilən tapşırıqların öhdəsindən layiqincə gəlib, ona göstərilən etimadı hər zaman doğruldub. Hazırda hərbi qulluqçumuz Daxili Qoşunların döyüş bayrağının mühafizəsi üzrə qarovul rəisi vəzifəsindədir.

99713 saylı hərbi hissənin komendant bölüyünün komandiri baş leytenant Mirsədi Babayev gizir F.Cabbarovu intizamlı, bacarıqlı, savadlı hərbi qulluqçu kimi xarakterizə etdi.

Hərbi qulluqçumuza şərəfli xidmətində uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

# HAZIRLIQLI MANQA KOMANDİRİ

16076 saylı hərbi hissənin intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından olan kiçik çavuş Taleh Əsgərov mühafizə bölüyündə xidmət edir. Bölük komandiri baş leytenant Əlizamin Babazadə tərəfindən müsbət xarakterizə olunan manqa komandiri qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.



Kiçik çavuş T.Əsgərov 2003-cü ilin dekabr ayının 9-da Lənkəran rayonunun Tütəpeştə kəndində anadan olub. 2010-2021-ci illərdə Şürük kəndində yerləşən tam orta məktəbdə oxuyub. 2021-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinə qəbul olunsa da, ali təhsilini tamamlamayıb. Uşaqlıqdan idmanın güləş növü ilə məşğul olub.

2025-ci ilin yanvar ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədən sonra xidmətini 16076 saylı hərbi hissədə davam etdirir. 2025-ci ilin avqust ayında hərbi hissədə təşkil edilmiş kiçik komandirlər kursunu müvəffəqiyyətlə bitirərək "kiçik çavuş" hərbi rütbəsi verilməklə manqa komandiri vəzifəsinə təyin edilib.

Kiçik çavuş T.Əsgərov daim üzərində çalışır, özünə və tabeliyində olan əsgərlərə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Şəxsi heyət arasında yoldaşlıq münasibətlərinin möhkəmləndirilməsinə töhfə verməsi onun müsbət xüsusiyyətlərindəndir. Xidmət müddətində bölüyün komandir heyəti və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb.

**16076 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR -

## ABŞ 1 milyard dollarlıq HIMARS YARS-ların Kanadaya satışını təsdiqləyib

ABŞ Dövlət Departamenti 1.7 milyard dollar dəyərindəki M142 HIMARS yaylım atəşli reaktiv sistemlərin (YARS) Kanadaya satışını təsdiq edib. "Poliqon" xəbər verir ki, bu barədə ABŞ-ın Müdafiə Təhlükəsizliyi Əməkdaşlıq Agentliyi (DSCA) məlumat yayıb.



Bildirilib ki, sifarişə 26 ədəd M142 HIMARS YARS-ın, 132 ədəd M31A2 GMLRS raketinin və digər avadanlıqların satın alınması, eləcə də onlara təmir, texniki xidmət və logistika dəstəyinin göstərilməsi daxildir.

## "Lockheed Martin" və Pentaqon 296 ədəd yeni F-35 qırıcısı üçün müqavilə imzalayıb

"Lockheed Martin" şirkəti və Pentaqonun (ABŞ Müharibə Nazirliyi) F-35 Birgə Proqram Ofisi 296 ədəd yeni F-35 qırıcısının istehsalı və çatdırılmasını əhatə edən müqaviləni imzalayıb. "Poliqon" "Army Recognition"a istinadən xəbər verir ki, müqavilə çərçivəsində çatdırılmalar 2026-cı ildən başlayacaq.



Bu, həm ABŞ-ın hərbi hazırlığını gücləndirəcək, həm də müttəfiq ölkələr və xarici hərbi satış müştərilərini dəstəkləyəcək.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş leytenant Elimdar Hətəmovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı çavuş Malik Quliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000